# Naxçıvan Dövlət Milli Dram Teatrı Bakı səhnəsində çıxış edib

Ötən il oktyabrın 29-da start götürən, Akademik Milli Dram Teatrı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Televiziyasının dəstəyi ilə reallaşan "Bölgə teatrlarının Bakı premyerası" layihəsinin sonuncu qonağı Naxçıvan Dövlət Milli Dram Teatrı olub.



Fevralın 10-da Akademik Milli Dram Teatrının səhnəsində Naxçıvan teatrı rejissor Mir Qabil Əkbərovun quruluş verdiyi Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyası ilə tamaşaçılar qarşısına çıxıb. Əsərin uğurlu təqdimatı tamaşaçılar və teatr ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

Layihənin yekununda Naxçıvan Dövlət Milli Dram Teatrı uğurlu çıxışına görə Akademik Milli Dram Teatrı adından xüsusi diplomla təltif edilib.

Tamaşanın sonunda çıxış edən Akademik Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə "Bölgə teatrlarının Bakı premyerası" layihəsinin məqsəd və vəzifələrindən söz açıb. Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru və baş rejissoru Mir Qabil Əkbərova isə bu uğurlu tamaşaya görə xüsusi təşəkkür edərək, gənc rejissorların Azərbaycan teatrının inkişafındakı rolundan danışıb.

"Bölgə teatrlarının Bakı premyerası" layihəsi çərçivəsində Azərbaycanın müxtəlif bölgələrindən teatr kollektivləri Bakıda tamaşalar təqdim edərək, paytaxt tamaşaçıları ilə görüşmək imkanı qazanıblar. Layihə teatr sənətinin regionlarda inkişafına və mədəniyyət mübadiləsinə töhfə vermək məqsədi daşıyıb.

Azərbaycan.- 2025.- 12 fevral (№ 31).- S.1.